# Qoşulmama Hərəkatının Bakı mesajları

**Azərbaycanın mühüm beynəlxalq tədbirlər mərkəzinə çevrilməsi Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü ilə bir daha təsdiqləndi. Tədbirdə müxtəlif ölkələrdən yüksəksəviyyəli rəsmi şəxslər iştirak etdilər. Ölkəmiz Qoşulmama Hərəkatına üçillik sədrliyi dövründəki səmərəli fəaliyyətinin bariz nümunəsini bu tədbirdə də göstərdi.**

120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı beynəlxalq hüququn fundamental prinsipləri, xalqların mənafeyi əsasında müstəmləkəçiliyə qarşı mübarizədə qlobal platforma kimi hələ də müstəmləkə hökmranlığına qarşı mübarizə aparan xalqları dəstəkləmək üçün yeni məqsədlər müəyyənləşdirməyi özünə borc bilir. Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində iyulun 6-da Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusunda keçirilən "dəyirmi masa" da Fransanın müstəmləkəçilik siyasətinin bir sıra ölkələrdə törətdiyi fəsadlara dair fikir mübadiləsi aparmağa imkan verdi.

Özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransanın hələ də digər ölkələrin daxili işlərinə qarışması, Azərbaycanın Qarabağ bölgəsində də erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışması tədbirdə bir daha diqqətə çatdırıldı.

Qeyd edək ki, Prezident İlham Əliyev də Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə Fransada etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlərin, rəsmi şəxslər və parlamentin iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışların getdikcə artdığını, bu yaxınlarda Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsinin bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlaməti olduğunu vurğulamışdır.

"Dəyirmi masa"da da bu məsələ müzakirə olunaraq diqqətə çatdırıldı ki, Fransa bir çox hallarda bəzi ölkələrə insan hüquqları, demokratiya ilə bağlı "dərs" verməyə çalışır. Digər tərəfdən, özündə insan hüquqları kobud şəkildə pozulur, irqi, dini mənsubiyyətə görə insanlar diskriminasiyaya məruz qalırlar. Bu da Fransanın insan hüquqları və demokratiyaya yanaşmasında riyakarlığını göstərir. Xüsusilə Makronun rəhbərliyi dövründə Fransada hakimiyyət orqanları ilə cəmiyyət üzvləri arasında qarşıdurmalar intensivləşib və kəskin xarakter alıb. Tədbirdə eyni zamanda qeyd olundu ki, Fransa Yaxın Şərqdə vətəndaş müharibələrinin əsas qızışdırıcı ölkələrindən biridir. Bütün bunlar Fransanın müasir dövrdə insan hüquq və azadlıqlarının qorunmasına, təhlükəsizlik problemlərinə biganə yanaşmasını göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan.-2023.-7 iyul.-S.5.